# II YAYLAQ FESTİVALI

## BEYNƏLXALQ SƏVİYYƏLİ MƏDƏNİ TƏDBİRƏ ÇEVRİLDİ



**Hacıkəndin Xan yaylağının ərazisində yerləşən Yaylaq yurdu... Dağlar qoynunda, göz oxşayan yaşıllıqda salınan etnoqəsəbə yüz il əvvəl olduğu kimi, indi də göz oxşayır. Dümağ alaçıqları, milli geyimli atlıların at oynatdığı "Cıdır meydanı", zəngin "Yaylaq bazarı", qədim tarixə malik xalq sənətinin bugünkü davamçılarının sənətkarlar guşəsi, "Dədə Qorqud ocağı", özünəməxsus gözəllikləri ilə göz oxşayan "Yaylaq yatağı", qol çirmalayıb güc göstərən "Pəhləvanlar meydanı", "Aşıq Ələsgər ocağı"nın saz-söz dünyası, min bir nemətlə zəngin "Yaylaq süfrəsi" yüz illər boyu necə idisə, eləcə də təşkil olunmuşdu.**







II Yaylaq Festivalı xalqımızın qədim tarixi-mədəni köklərə malik milli-mənəvi dəyərlərinin, yaylaq adət-ənənələrinin və elat mədəniyyətinin təbliğində parlaq səhifəyə çevrildi.

Tədbirə 22 xarici ölkədən 300-dən artıq mədəniyyət və incəsənət xadimi, xalq sənəti nümayəndələri qatılmışdı. Yaylaq Festivalı zəngin yaylaq ənənələrinin və unikal elat mədəniyyətinin, milli-mənəvi dəyərlərimizin yaşadılması və təbliği ilə yanaşı, həm də geniş coğrafi məkanda yaşayan türksoylu xalqların ortaq tarixi adət-ənənələrinin və yaylaq yaşam mədəniyyətinin qarşılıqlı tanıdılmasına sanballı töhfə verdi.

II Yaylaq Festivalı milli-mənəvi dəyərlərimizin, qədim adət-ənənələrimizin, yaylaq-elat mədəniyyətinin tərənnümünün ifadəsinə çevrilməklə, həm də xalqlararası mədəni-etnoqrafik, elmi-praktik əməkdaşlıq üçün geniş imkanlar açdı.

Azərbaycan yaylağının qədim abhavası, zəngin adət-ənənələrimiz festivalın qonaqlarını heyran etdi. Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Monqolustan, İran, Qırğızıstan, Dağıstan və digər ölkələrdən olan incəsənət və xalq sənəti ustaları, aktyorlar öz səhnəcik və kompozisiyalarını nümayiş etdirdilər, festival iştirakçılarına qədim xalq oyunları, sənətkarlıq məhsulları, milli geyim nümunələri təqdim olundu. Qazaxıstanın orijinal musiqi kollektivlərindən olan "Turan" etnoqrafik folklor ansamblının, Xarəzm Dövlət Filarmoniyası "Aşula" xalq musiqi qrupunun, Kazan tatar rəqs qrupunun, Dağıstanın "Noqay" və İranın "Qaşqayilər" teatr kollektivlərinin, Özbəkistanın Belboqli Kuras Federasiyasının rəqqaslarının, Axıska türklərinin Adıgün kollektivinin, talış nənələrinin "Halay" ansamblının və Azərbaycanda yaşayan digər azsaylı xalqların sənət adamlarının mədəniyyət nümunələri, səhnəcikləri, qədim xalq oyunları, milli geyim nümunələri festivala rəng qatdı, maraqla qarşılandı. Tədbirin əks-sədası ölkəmizin hüdudlarını aşaraq bütün dünyaya yayıldı, yerli, milli və beynəlxalq səviyyələrdə qeyri-maddi-mədəni irsin təntənəsinə çevrildi.

Dünyanın müxtəlif ölkələrindən festivala qatılan qonaqların tərkibi və təəssüratları tədbirin beynəlxalq uğurundan xəbər verir.

**Dipes Kamlakar (Hindistan):**

- Mən bura öz ölkəmi tanıtmaq üçün gəlmişəm. Festivala və həmçinin buradakı bütün proqramlara qoşulmuşuq. Burada olanlardan məmnunluq duyuram. Hər kəs həyəcanlıdır və Hacıkənddə belə səfalı təbiət qoynunda olmaq zövqvericidir. Düşünürəm ki, burada çox böyük mədəniyyət hadisəsi baş verdi. Buna, sadəcə, bir yaylaq festivalı kimi baxmaq, bəlkə də doğru olmazdı. Bu gözəl addımı atanlar vətən, torpaq, millət sevgisi yaşadan insanlardır. Bu, həm də dünyaya sülh, dostluq, əməkdaşlıq çağırışıdır.

**Ravşan Dastirov (Özbəkistan):**

- Burada bütün festival iştirakçılarına səmimi münasibət gördük. Təşkilatçılara təşəkkür edirəm ki, belə gözəl festival təşkil ediblər. Dostlarımızla qarşılaşdıq, eyni zamanda, müxtəlif ölkələrdən olan və müxtəlif mədəniyyətlərə malik insanlarla tanış olduq. Belə festivalın davamlı olması naminə mütləq gələcək planlar barədə müzakirələr aparacağıq.

İdmançılarımız festivalda xüsusi nömrələrlə çıxış etdilər. İştirakçılara təqdim etdiyimiz Belboqli Kuraş qədim milli döyüş növüdür. Bu idman növünün tarixi çox qədimdir. Türkdilli ölkələrin incəsənət ustalarının rəqslərində də xeyli oxşarlıqlar gördük.

**Pilageya Ceban (Qaqauziya):**

- Biz Moldaviyadan, Qaqauziyadan gəlmişik, öz regionumuzu təqdim etmək üçün buradayıq. "Sevdan" folklor kollektivi adından mədəniyyətimizi, mahnılarımızı, rəqslərimizi və adət-ənənələrimizi nümayiş etdirdik. Yaylaq çox möhtəşəmdir. Tədbir beynəlmiləl mahiyyət kəsb etməklə beynəlxalq əks-səda doğuracaq.

**Alina Məmmədova (Ukrayna):**

- Burada olmağımızdan çox şadıq. Bizdə də belə dağlar var, amma buralar daha gözəldir. Azərbaycan xalqına qonaqpərvərliyinə görə minnətdaram. Bu möhtəşəm festivalda iştirakım isə geniş söhbətin mövzusudur.

**Almira Tunqatarova (Dağıstan):**

- İlk dəfədir buradayıq. İnsanlar, gözəl təbiət çox xoşumuza gəldi. Festivalda bizim ansambl milli "Naqay" rəqsini təqdim etdi. Öyrəndim ki, festival ikinci dəfədir keçirilir. Yaxşı olar ki, ənənəvi xarakter alsın, beynəlxalq statusa malik olsun. Gələcək tədbirlərdə biz də məmnuniyyətlə iştirak edərik.

**Uğur Işlaq (Türkiyə):**

- Festival üç gün davam etdi. Burada iştirak edən hər bir xalqın nümayəndəsi sanki öz tarixi, taleyi, əcdadlarının ruhu ilə qarşılaşdı. Bu cür tədbirlər həm də böyük türk dünyasının bir oyanış prosesidir. Ümidvaram ki, tədbir ənənəvi olacaq, dünyada sülhə, əməkdaşlığa və incəsənətlərin qarşılıqlı inkişafına əvəzsiz töhfələr verəcək.

II Yaylaq Festivalı üç gün davam etdi. Əminik ki, dünyanın müxtəlif ölkələrindən tədbirdə iştirak edən nümayəndələr Azərbaycanın qədim mədəniyyəti və incəsənətindən, adət-ənənələrindən, ən başlıcası isə xalqımızın səmimiyyəti, sülhsevərliyi və qonaqpərvərliyindən hər zaman ağızdolusu danışacaqlar.

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**